AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRİ

# Ə M R

№ 82

Bakı şəhəri — "28" sentyabr 2015-ci il

**"Poliomielitə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə"**

Ümumdünya Səhiyyə Təşkilatı Avropa Regional Bürosunun verdiyi məlumata əsasən 2015-ci ilin avqust ayında Ukraynada dövr edən I tip vaksin poliovirusu ilə əlaqəli 2 kəskin süst iflic hadisəsi qeydə alınmışdır.

Aşkar olunmuş poliovirus ştamının Ukrayna ərazisindən kənara yayılma ehtimalının aşağı olmasına baxmayaraq, ÜST-ün tövsiyələrinə uyğun olaraq respublikada poliomielitdən azad ərazi statusunun saxlanılması üçün digər ölkələrdən gətirilmə poliovirusların vaxtında aşkar edilməsi və əksepidemik tədbirlərin həyata keçirilməsi üçün ciddi epidemioloji nəzarətin təmin olunması məqsədi ilə

## ƏMR EDİRƏM:

1. Respublikanın şəhər və rayonlarının səhiyyə idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın:

1.1. hər hansı səbəblərə görə poliomielitə qarşı peyvənd olunmayan uşaqlar OPV vaksini ilə immunlaşdırılsınlar;

1.2. 2014-cü ilin nəticələrinə görə OPV peyvəndi ilə əhatə səviyyəsi 95%-dən aşağı olan rayonlarda 0-5 yaşınadək uşaqlar arasında cari ilin oktyabr-noyabr aylarında 2 turdan ibarət əlavə immunlaşdırma tədbirləri keçirilsin;

1.3. uşaqlar arasında kəskin süst iflic hadisələrin aşkar edilməsi işi gücləndirilsin.

2. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru A.Əlibəyova tapşırılsın:

2.1. respublikada poliomielit əleyhinə əlavə tədbirlərin həyata keçirilməsi məqsədi ilə şəhər və rayonlar üzrə immunlaşdırma planlarının hazırlanması təşkil edilsin və müvafiq təşkilatı tədbirlərin görülməsi təmin edilsin;

2.2. əlavə immunlaşdırma tədbirlərinin yekun nəticələri haqqında məlumat 21 dekabr 2015-ci il tarixinədək Səhiyyə Nazirliyinə təqdim edilsin.

3. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru A.Əlibəyova və Respublika Taun Əleyhinə Stansiyasının direktoru əvəzi R.Abdullayevə tapşırılsın ki, respublika ərazisində kəskin süst iflıclər üzərində fəal epidemioloji nəzarətin, həmçinin ətraf mühitin monitorinqinin aparılması və poliovirusların aşkarlanması təmin edilsin.

4. İnnovasiya və Təchizat Mərkəzinin direktoru R.Rüstəmbəyova tapşırılsın ki, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin sifarişi əsasında əlavə immunlaşdırma tədbirlərinin keçirilməsi üçün poliomielitə qarşı OPV vaksininin yerlərə çatdırılması təmin edilsin.

5. Respublika Sanitariya-Karantin Müfəttişliyinin rəisi E.Mahmudova tapşırılsın ki, xəstəlik baş vermiş Ukraynaya səyahət etmək istəyən şəxslərin poliomielit xəstəliyi barədə məlumatlandırılması üçün tədbirlər görülsün.

6. Əmrin icrasına nəzarət nazir müavinləri Abbas Vəlibəyova və Nigar Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**